# Azadlıq və müstəqillik ruhunun rəmzi

## Azərbaycan Xalq Cümhuriyyəti (AXC) 1918-ci il iyunun 21-də dövlət bayrağının təsdiq edilməsi haqqında qərar qəbul edib



Xalq Cümhuriyyətinin ilk bayrağı, 1918, 21 iyun



ВЫПИСКА
изъ журнала постановленій Правительства Азербайджана отъ 9-го Ноября 1918 г.

| СЛУШАЛИ: | ПОСТАНОВИЛИ: |
| --- | --- |
| Докладъ Председателя Совѣта Министровъ о національномъ флагѣ.- | Національнымъ флагомъ признать флагъ, состоящій изъ зеленаго, краснаго и голубого цвѣтовъ съ бѣлымъ полумѣсяцемъ и восьмигранной звѣздой.- |

Съ подлиннымъ вѣрно:
Дѣлопроизводитель

Настоящая выписка препровождается Г. Министру Юстиціи для свѣдѣнія.
Ноября "11" дня 1918 г.
гор. Баку.
№ 2248.
Секретарь Правительства
Дѣлопроизводитель

Üçrəngli bayrağın təsdiq edilməsi haqqında qərar



Xalq Cümhuriyyətinin üçrəngli bayrağı, 1918, 9 noyabr

*1918-ci il mayın 28-də Azərbaycanın Milli Şurası Tiflisdə tarixi qərar qəbul edərək Azərbaycan Xalq Cümhuriyyətinin müstəqilliyini elan etdi. Bu, Şərqdə ilk demokratik, dünyəvi türk-islam dövləti qurmaq istiqamətində böyük bir addım idi. Ancaq həmin vaxt Bakı şəhəri sovet bolşevikləri və daşnak erməni qüvvələrinin birgə təşkil etdiyi "Bakı Xalq Komissarları Soveti"nin nəzarətində idi və buna görə hökumət iyunun 16-da Gəncəyə köçmək məcburiyyətində qaldı.*

Gəncədə fəaliyyətə başlayan Azərbaycan Müvəqqəti Hökuməti azadlıq yolunda çox çətin şəraitdə milli dövlətçilik üçün zəruri addımlar atdı. Onlardan biri də ilk dövlət bayrağının təsdiq edilməsi idi. 21 iyun 1918-ci ildə qəbul edilən qərarla üzərində ağ rəngli aypara və səkkizguşəli ulduz təsvir olan qırmızı bayraq Azərbaycan Xalq Cümhuriyyətinin rəsmi dövlət bayrağı elan edildi. Bayraq Osmanlı bayrağı ilə çox oxşar idi. Yeganə fərq ondan ibarət idi ki, Osmanlı Türkiyəsinin bayrağındakı hilal ayın yanında beşguşəli ulduz yerləşirdisə, Azərbaycan Cümhuriyyətinin bayrağında ulduz səkkizguşəli idi. Bu bayraq həmin dövr üçün türk dünyası ilə dostluq əlaqələrinin simvolu kimi dəyərləndirilirdi. Lakin bu bayraq cəmi bir neçə ay sonra milli müstəqillik ideyalarına uyğun yeni dizaynla əvəz edildi. 1918-ci ilin noyabrın 9-da AXC-nin Nazirlər Şurası üçrəngli bayrağı təsdiqlədi: "Yaşıl, qırmızı və mavi rənglərdən, ağ aypara və səkkizbucaq ulduzdan ibarət olan bayraq Milli bayraq hesab edilsin". Hər bir rəngin xüsusi mənası vardı. Mavi rəng türklüyü, qırmızı rəng müasirliyi, azadlıq və demokratiyanı, həmçinin milli inkişafı, yaşıl rəng isə İslam dinini, millimənəvi dəyərləri və zəngin təbiəti simvolizə edirdi. Bayrağın üzərindəki aypara və səkkizguşəli ulduz həm İslam dünyasını, həm də Azərbaycan xalqının qədim tarixini və mədəniyyətini əks etdirirdi. "Türkləşmək, islamlaşmaq, avropalaşmaq (firəngləşmək)" üçlüyünü böyük şüara və bütün türk milləti üçün ideala, məqsədə çevirən düşüncənin banisi isə türk dünyasının görkəmli mütəfəkkiri, Azərbaycanda doğulub Rusiya və Türkiyə universitetlərində təhsil almış Əli bəy Hüseynzadə olmuşdur. Onun 1907-ci ilin iyul ayının 10-da Bakıda nəşr etdiyi "Füyuzat" jurnalında dərc edilən məqaləsində "Türk hissiyyatlı, islam etiqadlı, firəng qafalı" kimi ilk dəfə irəli sürdüyü bu fikir sonradan böyük mütəfəkkir Ziya Göyalp tərəfindən "Türk qanlı, islam imanlı, Avropa mədəniyyətli" ifadəsi ilə təsdiqlənmişdir.

Bayraq ilk dəfə 1918-ci il noyabrın 9-da Bakı şəhərində Nazirlər Şurasının yerləşdiyi binada dalğalandı. Daha sonra, 7 dekabr 1918-ci ildə parlament binası üzərinə qaldırıldı və bu an milli dövlətçiliyin inkişafında ən önəmli tarixlərdən biri oldu. 1920-ci ilin aprel ayında sovet qoşunlarının işğalı ilə Azərbaycan Xalq Cümhuriyyətinin süqutu milli bayrağımızın da endirilməsi demək idi. 1920-ci il mayın 3-də Azərbaycan parlamentinin binası üzərindən üçrəngli bayraq endirildi və yerinə Sovet İttifaqının qırmızı bayrağı asıldı. Bu, xalqımızın müstəqilliyini itirməsi ilə yanaşı, milli rəmzlərin də 70 illik qadağan olunması, gizli saxlanılması dövrünün başlanğıcı idi. Lakin üçrəngli bayraq xalqın yaddaşında yaşamağa davam etdi, o, mübarizənin, azadlıq arzusunun sarsılmaz simvoluna çevrildi.

Sovet İttifaqı dağıldıqdan sonra 1990-cı il noyabrın 17-də Heydər Əliyevin təşəbbüsü ilə qədim Azərbaycan torpağı Naxçıvanda üçrəngli bayraq yenidən dövlət bayrağı kimi qəbul edildi. Bu, milli dirçəlişin və müstəqillik ideyasının rəmzi idi. 1991-ci il fevralın 5-də Ali Sovet "Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında Azərbaycan Respublikasının Qanunu"nu qəbul etdi və üçrəngli bayraq rəsmi dövlət atributu kimi təsdiqləndi. 1991-ci ilin sentyabrından isə bayraq bütün ölkədə rəsmi olaraq dalğalanmağa başladı. Prezident İlham Əliyevin 2009-cu il noyabrın 17-də imzaladığı sərəncamla hər il noyabrın 9-u Dövlət Bayrağı Günü elan edildi. Bu milli bayrağa verilən yüksək hörmət və onun xalqımız üçün mənəvi əhəmiyyətinin rəsmiləşdirilməsi deməkdir.

Bayrağın üç rəngi XIX əsrdən başlayaraq milli hərəkatın simvolu kimi istifadə olunurdu. Xüsusilə 1880-ci illərdə Azərbaycanda çap olunan milli-mədəni jurnallarda bu rənglər müxtəlif şəkildə simvolizə edilirdi. Bu dövrdə nəşr olunan "Ziya", "Ziyayi-Qafqaziyyə" və "Kəşkül" kimi jurnallar milli kimliyin formalaşmasında mühüm rol oynayırdı. Jurnalların səhifələrində mavi, qırmızı və yaşıl rənglərin mənaları müxtəlif aspektlərdən işıqlandırılırdı. Təxminən yüz il sonra isə bu bayraq azadlıq hərəkatlarında yeidən dalğalanmağa başladı.

Azərbaycan bayrağı xalqımızın azadlıq, müstəqillik və milli həmrəylik simvoludur. Tarix boyu yaşanan çətinliklərə, işğallara və sınaqlara baxmayaraq, bu müqəddəs rəmz əbədi olaraq qəlbimizdə yaşayır, gələcək nəsillərə vətən sevgisi və milli qürur kimi ötürülür. Bayrağımızın dalğalanması Azərbaycanın dövlətçilik tarixində qazandığı uğurların və xalqımızın əzmkarlığının parlaq təcəssümüdür. Biz bu bayrağın altında birlik və bərabərlik ruhunu gücləndiririk. Azərbaycan bayrağı müstəqil, güclü və sarsılmaz bir xalqın əbədilik simvolu olaraq daim yüksələcək.

**Tacir SADIQOV,**
**"Respublika".**

Respublika.- 2025.- 21 iyun (№126).- S.7.